# KİTABXANA RESURSLARI: YERLƏŞMƏSİ VƏ İSTİFADƏSİ PROBLEMLƏRİ (DÜNYA VƏ REGİONAL TƏCRÜBƏNİN MÜQAYİSƏLİ TƏHLİLİ)

**Nadir İSMAYILOV**
*Bakı Dövlət Universitetinin Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, dosent*
*Bakı, BDU, Azərbaycan,*
kafedra_biblioqraf@mail.ru

***Библиотечные ресурсы: проблемы размещения и использования (сравнительный анализ мирового и регионального опыта)***
***Резюме:*** *В статье поставлена задача проводить сравнительный анализ размещения, кадрового обеспечения и использования библиотечных ресурсов мировой и регионального уровня.*
***Library resources: problems of accommodation and usage (comparative analysis of global and regional experience)***
***Abstract:*** *In the article tasked to carry out a comparative analysis of the placement, staffing and the use of library resources in the world and regional levels.*

***Açar sözlər:*** *Dünya kitabxana resursları, yerləşməsi, istifadəsi problemləri.*
***Ключевые слова:*** *Библиотечных ресурсов мира, размещения, проблемы использования и кадрового обеспечения*
***Keywords****: The world library resources, location, usage problems.*

**Giriş.**

Müasir kitabxanaşünaslıq tədqiqatlarında əsas istiqamətlərdən biri kimi ayrı-ayrı ölkə və regionlarda kitabxana mədəniyyətinin meydana gəlməsi və inkişafı problemləri geniş şəkildə tədqiq olunur. Lakin, dünyada kitabxana infrastrukturunun, onun resurslarının yerləşdirilməsi və istifadəsinin müasir vəziyyətinin araşdırılması, ayrı-ayrı ölkələrdə inkişaf xüsusiyyətlərinin təhlilə cəlb edilməsi, bütövlükdə, planetdə kitabxana landştaftının mənzərəsini yaratmağa və onun gələcək perspektivlərinin düzgün müəyyən edilməsinə kömək edə bilər. Bu baxımdan təqdim edilən məqalə məhz həmin missiyanın yerinə yetirilməinə yönəlmiş təşəbbüslərdən biridir.

**Məsələnin qoyuluşu.**

İşin əsas məqsədi müxtəlif ölkələrdə kitabxana-informasiya resurslarının yerləşməsi və istifadəsinin gerçək mənzərəsini yaratmaq, Azərbaycan Respublikasında kitabxana-informasiya infrastrukrunun quruluşunu, informasiya resurslarının regional yerləşməsi və onun həcmini, ölkənin ayrı-ayrı regionlarının

kitabxanaçı kadrlarla təminatının səviyyəsini müəyyən etməkdən ibarətdir. Bu məqsədlə ayrı-ayrı ölkələrin kitabxana işi sahəsində əldə etdiyi nəaliyyətlər və həm də beynəlxalq professional təşkilatların apardığı tədqiqatların nəticələrindən istifadə olunmuşdur. Əlbəttə, Azərbaycan Respublikasında kitabxana resurslarının və infrastrukturunun yerləşməsi, istifadəsi və bu prosesə təsir edən sənəd axınının qanunauyğunluqları və idarə olunması məsələləri də şərh olunmuşdur.

**Məsələnin izahı.**

BMT-nin məlumatına görə 2014-cü ildə yer kürəsinin əhalisi 7.2 milyard nəfər olmuşdur. Aparılan tədqiqatlar göstərir ki, bəşəriyyətin bütün tarixi boyu yer kürəsi 107 milyard insan gəlmişdir. (Niderland alimi Peter Qreynbald hesablamışdır)

İndi yer kürəsində onun 6%-dən çoxu yaşayır.

**Cədvəl 1. Yer kürəsi əhalisinin sayı**

| Qitə | əhali | Ümumi faizi dünya əhalisinin |
|---|---|---|
| Asiya | 4223 min. | 60.01% |
| Afrika | 1081 min. | 15.36% |
| Avropa | 739 min. | 10.51% |
| Şimali Amerika | 554 min. | 7.89% |
| Cənubi Amerika | 401 min. | 5.70% |
| Avstraliya və Okeaniya | 37 min. | 0.53% |
| | | **Cəmi: 7037 mln. insan** |

Diaqram N-1

Yer kürəsində əhalinin regionlar üzrə yerləşməsi






Region 1- Asiya; region 2- Afrika; region 3- Avropa; region 4- Şimali Amerika; region 5- Cənubi Amerika; region 6- Avstraliya və Okeaniya.

Göründüyü kimi Yer kürəsi əhalisinin 60%-dan çoxu Asiya qitəsində, 15,36%-i Afrikada, 10,51%-i Avropada, 13,59%-i Amerika qitəsində yerləşmişdir. Ölkələr üzrə: əhalinin 19.15%-i Çin Xalq Respublikasıda,17.60% Hindistanda, 4.46% ABŞ-da, 3.84%-i İndoneziyada, 2.84% Braziliyada, 2.63%-i Pakistanda, 2.48% Nigeriyada, 2.19%-i Banqladeşdə, 2.04% Rusiyada , 1.77%-i Yaponiyada, 1.12% Almaniyada, 1.08% Türkiyədə, 1.08% İranda, 0.89% Böyük Britaniyada, 0.89% Fransada, 0.85% İtaliyada, 0.65% İspaniyada, 0.59% Ukraynada,0.54% Polşada, 0.48% Kanadada, 0.28% Ruminiyada, 0.24% Qazaxıstanda, 0.16% Yunanıstanda, 0.14% Bolqarıstanda, 0.13% Azərbaycanda, 0.062% Gürcüstanda və s. ölkələrdə yaşayır. Beləliklə, yer kürəsi əhalisinin 60.01%-i Asiya qitəsində, 11%-ə qədəri Avropada, 15.36%- Afrikada, 13.6% Amerikada, 0.53% Avstraliya və Okeaniyada yaşayır. (10).

Bəşəriyyətin yaratdığı sosial informasiyanın hifs edilməsi, sənədləşdirilərək nəsildən-nəsilə ötürülməsinin varisliyini təmin etməyin ən yaxşı vasitələrindən biri kitabxanaların olması artıq çoxdan sübut olunmuşdur. Beynəlxalq Kitabxana Assosiasiyaları Federasiyasının apardığı tədqiqatlara görə dünyada 569,6 mindən çox kitabxana fəaliyyət göstərir. (7)

**Cədvəl 2. Dünyada kitabxanaların sayı (min)**

| Regionlar | Ümumaçıq k.x | Ali məktəb k.x | Məktəb k.x | Milli k.x | Cəmi |
|---|---|---|---|---|---|
| Afrika | 797 | 266 | 51 | 15 | 1129 |
| Asiya | 37063 | 6909 | 29992 | 66 | 74034 |
| Şimali Amerika | 20081 | 11460 | 78773 | 50 | 110364 |
| Cənubi Amerika | 3942 | 17 | - | 32 | 3991 |
| Okeaniya | - | - | 2 | - | 2 |
| Avropa | 205336 | 10161 | 164436 | 178 | 380111 |
| Cəmi | 267219 | 28813 | 273254 | 341 | 569627 |

Bunu əyani olaraq diaqram 2-dən görmək olar.

Diaqram N-2. Dünyada regionlar üzrə kitabxanaların sayı




Region 1-Avropa; region 2-Şimali Amerika; region 3-Asiya; region 4- Cənubi Amerika; region 5- Afrika; region 6-Okeaniya

Kitabxana şəbəkələrinin inkişafı baxımından liderlik Avropa qitəsinə məxsusdur. Burada 440 mindən çox, Şimali Amerikada isə 125 mindən çox kitabxana fəaliyyət göstərir. Dünyada ən az kitabxana olan qitə Afrikadır ki, orada cəmi 1,2 min kitabxana oxuculara xidmət edir.(11)

Dünyanın kitabxanalarında 807 mindən çox kitabxana işçisi fəaliyyət göstərir.

**Cədvəl 3. Dünya kitabxana işçilərinin sayı**

| Region | Kitabxanalar | | | | |
|---|---|---|---|---|---|
| | Ümumaçıq | Ali məktəb | Məktəb | Milli | **Cəmi** |
| Afrika | 4 396 | 5 403 | 89 | 348 | 10 236 |
| Asiya | 112 394 | 77 281 | 19 116 | 2 238 | 211 029 |
| Şimali Amerika | 138 210 | 104 020 | 44 592 | 6 182 | 293 004 |
| Cənubi Amerika | 3 023 | 230 | - | 522 | 3375 |
| Okeaniya | - | 5 380 | 3 | - | 5 383 |
| Avropa | 98 726 | 28 336 | 135 484 | 21 912 | 284 458 |
| Cəmi | 256 749 | 220 650 | 199 284 | 31 202 | 807 885 |

Cədvəldən göründüyü kimi kitabxana işçilərinin 36%-i Şimali Amerikada, 35%-i Avropada, 26%-i isə Asiyada yerləşir. Onların yarısı ümumaçıq kitabxanalarda fəaliyyət göstərir. 25% kitabxana işçiləri isə təhsil müəssisələri kitabxanalarında çalışır.(12)



**Cədvəl 4. Dünya kitabxanalarının informasiya resursları (min nüsxə)**

| Regionlar | Kitab | Mikroforum | Aud.sənədlər | Sənədin digər növ. | Cəmi |
|---|---|---|---|---|---|
| Afrika | 52260 | 146 | 38779 | 89618 | 53689,97 |
| Asiya | 1615792 | 27371 | 41897,90 | 214812,60 | 1 899 873,50 |
| Şimali Amerika | 8 877 165 | 1 087 541 | 1 094 128,00 | 786789,70 | 11 845 623,70 |
| Cənubi Amerika | 461160 | 1972 | 129,25 | 3930,39 | 469 191,64 |
| Okeaniya | - | 5735 | - | - | - |
| Avropa | 5638092 | 19602 | 6 540 788,00 | 2 681 982,00 | 14 880 464,00 |
| Cəmi | 16 644 469 | 1142 367 | 7 679 331,00 | 3688 411,00 | 29 148 842,00 |

Aşağıdakı diaqramda dünyada kitabxana resurslarının regional yerləşməsi vəziyyəti öz əksini tapmışdır.

Diaqram N-3 Dünya kitabxanalarının informasiya resursları(min nüsxə)




Region 1- Avropa; Region 2- Şimali Amerika; Region 3- Asiya; Region 4-Afrika; Region 5- Cənubi Amerika; Region 6- Okeaniya;

Cədvəldən və diaqramdan göründüyü kimi dünya kitabxanalarının informasiya resursları 30 milyard nüsxəyə yaxındır. Bunlardan 17 milyardı kitab, 10

milyarddan çox dövri nəşrlər, 1,5 milyardı isə elektron daşıyıcılardan ibarətdir. Bu resursların 15 miyardı Avropada, 12 milyardı Şimali Amerikada, 1,8 milyard nüsxəsi isə Asiyada yerləşir. Göründüyü kimi dünya kitabxanalarının informasiya resurslarının yarısından çoxu yalnız Avropa qitəsində cəmlənmişdir. Kitabxana resurslarının yerləşməsində belə bir qanunauyğunluq müşahidə olunur ki, Şimali Amerikada kitablar, Avropada isə fondlarda dövrü nəşrlər ümumi resursun yarıdan çoxunu təşkil edir. Rusiya Federasiyası üzrə kitabxana fondlarında sənədlərin növləri və dil əhatəsinə görə təsnifatı belədir: 97.6% çap sənədləri, 1.8% elektron, 0.6% audivizial materiallar; 1.2% rus xalqlarının dilində, 1.5% xarici dillərdə,97.3% rus dilindədir.

Kitabxana resurslarının əsas komponentlərindən biri olan istifadəçilərin sayı rəsmi məlumata görə 2 milyarda yaxındır. (11)

**Cədvəl 5. Dünya kitabxanalarında istifadəçilərin sayı (min nəfər)**

| Region | Kitabxanalar | | | | |
|---|---|---|---|---|---|
| | Ümumaçıq | Ali məktəb | Məktəb | Milli | Cəmi |
| Afrika | 335,4 | 3 592,2 | - | 24 | 3 951,6 |
| Asiya | 115 071,0 | 67 821,3 | - | 4 283 | 187 175,3 |
| Şimali Amerika | 57 840,7 | 8 894,6 | - | 935 | 67 670,3 |
| Cənubi Amerika | 88,8 | 72,0 | - | 117 | 277,8 |
| Okeaniya | - | 551,0 | - | - | 551,0 |
| Avropa | 1 273 868,0 | 180 018,3 | - | 4 271 | 1 658 157,0 |
| Cəmi | 1 647 204,0 | 260 949,4 | 0 | 9 630 | 1 917 783,0 |

Bu göstəriciyə görə Avropa liderlik edir. Belə ki, Avropada 1,3 milyard, Asiyada 115 milyondan çox və Şimali Amerikada isə 58 milyondan çox kitabxana oxucusu vardır. Mütəxəssislər hesablamışlar ki, oxuculara xidmət sahəsində hər il orta hesabla dünyada kitabxanalar 3,5 trilyon əməliyyat həyata keçirirlər. Bu baxımdan, Avropa kitabxanalarının payına 1,5 trilyon, Asiya kitabxanalarının payına 82 milyard və Şimali Amerika kitabxanalarının payına 66 milyard əməliyyat düşür. Bunu dünya regionları üzrə kitabxanaların kitab verilişi sahəsindəki fəaliyyətini əks etdirən cədvəldə görmək olar.(11)



**Cədvəl 6. Dünya üzrə kitabxanalarda kitab verilişi**

| Region | Kitabxanalar | | | | |
|---|---|---|---|---|---|
| | Ümumaçıq | Ali məktəb | Məktəb | Milli | Cəmi |
| Afrika | 2 635,02 | 8 870,0 | 410 597 | 43 | 422 145,02 |
| Asiya | 941745,00 | 134 508,8 | 71 580 559 | 34 328 | 72 691 140,80 |
| Şimali Amerika | 1 941 085,00 | 12 179,2 | 56 208 576 | 147 | 58 161 987,20 |
| Cənubi Amerika | 39 693,00 | 690,0 | - | 2 045 | 42 428,00 |
| Okeaniya | - | 23 634,7 | 1500 | - | 38 634,70 |
| Avropa | 860 743,50 | 124 181,2 | 99 003 081 | 41 591 | 999 029 596,70 |
| Cəmi | 3 785 902,00 | 304 063,9 | 1126 217 813 | 78 154 | 1130 385 932,00 |

Amerika Milli Təhsil Statistika Mərkəzinin hesablamalarına görə 2004-cü ildə ölkədə 117341 kitabxana fəaliyyət göstərmişdir ki, 93,8 mini məktəb, 9,2 mini ictimai, 3,5 min akademik,9,2 mini xüsusi, 2 mini dövlət, 300-dən çoxu hərbi kitabxanalar olmuşdur.

YUNESKO-nun statistika idarəsinin verdiyi məlumata görə əhalinin adam başına düşən kitabxana kitablarının sayı ölkələr üzrə müxtəlifdir. Həmin mənbəyə görə Gürcüstanda 1000 nəfər əhaliyə düşən kitabların sayı 16335, İslandiyada 2831, Estoniyada 1114, Litvada 1601, Belarusiyada 667, Moldaviyada 598, Qırğızıstanda 576, Rusiya Federasiyasında 513, Azərbaycanada 467, Qazaxıstanda 249, Ukraynada 88 olmuşdur. Müqayisə üçün qeyd olunmuşdur ki, İsrayil bu göstərici üzrə 28-ci yerdə, Böyük Britaniya 30-cu yerdə, Almaniya 31-ci yerdə, İtaliya 42-ci yerdə, Yaponiya 59-cu yerdə olmuşdur. Dünya üzrə orta hesabla hər min sakinə 832,5 kitabxana kitabı düşür. (12)

Kitabxana resurslarının əsas hissəsini təşkil edən informasiya daşıyıcıları içərisində kitablar mühüm yer tutur. Bu baxımdan ayrı-ayrı ölkələrdə kitab nəşri sahəsində müxtəlif ziddiyyətlərin olduğu müşahidə edilir. Məlum lmuşdur ki, dünya kitab çapının təqribən 4-də biri Amerikanin payına düşür. Hesablamalara görə 90-cı illərin ortalarında Çin Xalq Respublikasında 101 min adda , Almaniyada 71.5 min adda, Yaponiyada 56.2 min adda, Fransada 34.7 min adda, Rusiyada isə 36.2 min adda kitab nəşr olunmuşdur.

Kitabxana resurslarından səmərəli istifadə edilməsində kitabxana şəbəkələrinin yerləşməsinin və əhalinin sıxlığının mühüm əhəmiyyəti vardır.Məsələn, Rusiya Federasiyasında əhalinin orta sıxlığı-1 kv.km-ə 8.6 nəfər düşür.Ancaq

Rusiya əhalisinin 80%-ə qədəri Avropa hissəsində və Uralda yerləşir ki, bu da Rusiya ərazisinin 25%-ini təşkil edir.Burada əhalinin sıxlığı məskunlaşmanın orta göstəricisindən ≈ 4 dəfə çoxdur.(hər 1 kv.km -36.7 nəfər)

Eyni zamanda Sibir və Uzaq Şərq regionu Rusiya ərazisinin 74.6%-ini, əhalisinin isə 21.4%-ini təşkil edir.Ölkə üzrə əhalinin orta sıxlıq gostəricisindən burada sıxlıq 3.4 dəfə aşağıdır. (9)

Azərbaycan tarixən kitabxana landşaftının zənginliyi ilə seçilən regionlardan biridir. Əgər, dünya əhalisinə yarım milyon kitabxana xidmət göstərirsə, Azərbaycan Respublikasında 12 mindən çox kitabxana-informasiya müəssisəsi fəaliyyət göstərir.(1) Bu da dünya kitabxana resursunun 2,4%-ni təşkil edir. Azərbaycan Respublikasının kitabxanalarının informasiya resursları hal-hazırda 150 milyona qədər çap vahidi ilə ölçülür. Ölkə əhalisinin 9 milyon olduğunu nəzərə alsaq hər 750 nəfərə 1 kitabxana, hər nəfərə isə təqribən 16,6 çap vahidi düşdüyü müəyyənləşir. Eyni zamanda bütövlükdə ölkə üzrə, həmçinin ayrı-ayrı regionlarda kitabxana-informasiya resurslarının düzgün yerləşdirilməsi və ondan səmərəli istifadə olunmasının tədqiq edilməsi aktuallıq kəsb edir. Ölkənin biblioqrafik informasiya mərkəzlərinin istehsal etdiyi informasiya resursunun ilkin sənəd kütləsinin axınını əks etdirməsi üzrə inkişaf meyllərinin öyrənilməsi nəticəsində müəyyən olunmuşdur ki, biblioqrafik informasiya ehtiyatının inkişaf səviyyəsi cəmiyyətin informasiya tələbatına əsasən cavab verir.

Azərbaycan Respublikasında kitabxana-biblioqrafiya resurslarının inkşafıda iki istiqamətdə diqqəti cəlb edir:birincisi, paytaxt və digər iri şəhərlərdə formalaşmış kitabxana resursları,ikincisi, mərkəzdən uzaq regionlar.

Azərbaycan Respublikasında isə 1 kv.km-ə düşən əhalinin sıxlığı 103 nəfər (5) təşkil edir.Abşeron iqtisadi rayonu isə ölkə ərazisinin 6.4%-ni təşkil edir və respublika əhalisinin 28.6%-i bu ərazidə məskunlaşmışdır. Qalan 93.6% ərazidə isə əhalinin 71.4% yaşayır.

İqtisadi rayonda əhalinin sıxlığı orta respublika göstəricisindən yüksək olmaqla 139 nəfər təşkil edir. Göründüuü kimi Bakı da daxil olmaqla Abşeron iqtisadi rayonunda ölkənin əsas iqtisadi, mədəni və infrastruktur potensialı cəmlənmişdir.Bütün resursların, o cümlədən kitabxana-informasiya resurslarının da ölkə üzrə səmərəli yerləşdirilməsinə ehtiyac vardır.

Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2008-ci il tarixli, 3072 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkşafı üzrə Dövlət Proqramı"na uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən 2009-cu ilin sentyabr ayında "Kitabxanaların Fəaliyyəti Haqqında" statistik müayinənin nəticələri barədə statistik bülleten nəşr etdirmişdir.Həmin monitorinqin nəticələrinə görə Azərbaycan Respublikasında kitabxana resurslarının yerləşməsi vəziyyəti iqtisadi rayonlar və Bakı şəhəri üzrə aşağıdakı kimi olmuşdur. (4)



**Cədvəl 7.**
**Azərbaycan Respublikasında regionların kitabxana infrastrukturu**

| Regionlar | Kütləvi k.x | Elmi müəs. k.x | Ali Məktəb k.x | O.i.m k.x | Cəmi |
|---|---|---|---|---|---|
| Aran | 1041 | - | 4 | 8 | 1988 |
| Gəncə-Qazax | 652 | 5 | 4 | 6 | 1265 |
| Lənkəran | 479 | - | 2 | 3 | 994 |
| Şəki-Zaqatala | 385 | 1 | 2 | 5 | 764 |
| Abşeron | 139 | 63 | 40 | 28 | 899 |
| Quba-Xaçmaz | 356 | 1 | 1 | 1 | 698 |
| Naxçıvan | 234 | 2 | 3 | 3 | 491 |
| Dağlıq Şirvan | 189 | - | 1 | 2 | 419 |
| Kəlbəcər-Laçın | 123 | - | - | - | 381 |
| Yuxarı Qarabağ | 220 | - | - | 4 | 608 |
| Cəmi | 3812 | 72 | 57 | 60 | 8507 |

1. Aran iqtisadi rayonu üzrə - 23.4%
2. Gəncə-Qazax iqtisadi rayonu üzrə - 14.9%
3. Lənkəran iqtisadi rayonu üzrə - 11.7%
4. Şəki-Zaqatala iqtisadi rayonu üzrə - 9%
5. Bakı şəhəri üzrə - 8.4%
6. Quba-Xaçmaz iqtisadi rayonu üzrə - 8.2%
7. Yuxarı-Qarabağ iqtisadi rayonu üzrə - 7.1%
8. Naxçıvan iqtisadi rayonu üzrə - 5.8%
9. Dağlıq Şirvan iqtisadi rayonu üzrə - 4.9%
10. Kəlbəcər-Laçın iqtisadi rayonu üzrə - 4.5%
11. Abşeron iqtisadi rayonu üzrə - 2.1% (4)

Aşağıdakı diaqram vasitəsilə ölkədə kitabxana resurslarının yerləşməsinin real mənzərəsini görmək olar.

Diaqram N-4. Azərbaycan Respublikası regionları üzrə kitabxana infraturukturunun yerləşməsi( sıra 1-2)







Region 1- Aran; region 2-Gəncə-Qazax; region 3-Abşeron; region 4-Lənkəran; region 5- Şəki-Zaqatala; region 6-Quba-Xaçmaz;region 7 –Yuxarı Qarabağ; region 8- Naxçıvan; region 9-Dağlıq Şirvan; region 10- Kəlbəcər-Laçın.

Göründüyü kimi, kitabxana resurslarının iqtisadi rayonlar üzrə bölgüsündə iqtisadi rayonun ərazisi, əhalisinin sayı, məskunlaşmanın dayaq karkasları mühüm rol oynayır.

Monitorinqin nəticələrinə görə kitabxanaların 27.3%-i şəhərlərdə, 72.7%-i kəndlərdə yerləşir. Ümimu kitabxana-informasiya resursunun 50.7%-ni Təhsil



Nazirliyinin. 46.6%-i Mədəniyyət və Turizm Nazirliyinin, 2.7%-ni isə digər müəssisələrin nəzdində olan kitabxanalar təşkil edir.

Tədqiqatlar göstərir ki, ölkənin regionlarında kitabxanaların informasiya resurslarının paylanması sahəsində də müəyyən problemlər vardır. Bun aşağıdakı cədvəldən də görmək olar.

**Cədvəl 8.**
**Azərbaycan Respublikasının regionlarında kitabxanaların informasiya resurslarının yerləşməsi vəziyyəti**

| Regionlar | K.x fondu | Kitablar | E. nəşrlər | Jurnal | Qəzet | Digər mat. |
|---|---|---|---|---|---|---|
| Aran | 13387267 | 13135972 | 1366 | 43743 | 131779 | 74407 |
| Gəncə-Qazax | 11773454 | 10775581 | 3804 | 128866 | 405513 | 459690 |
| Lənkəran | 6578166 | 64852956 | 226 | 12851 | 57634 | 22159 |
| Şəki-Zaqatala | 55155558 | 5434940 | 1423 | 3891 | 25914 | 49390 |
| Abşeron | 58577860 | 38669644 | 67755 | 3642594 | 1353148 | 14844719 |
| Quba-Xaçmaz | 4782603 | 4716679 | 168 | 28739 | 21821 | 15196 |
| Naxçıvan | 4696103 | 4569001 | 928 | 34171 | 55246 | 36757 |
| Dağlıq Şirvan | 2554763 | 2525641 | 196 | 7630 | 9585 | 11711 |
| Kəlbəcər-Laçın | 10558 | 1052108 | 122 | 1035 | 1691 | 887 |
| Yuxarı Qarabağ | 2072714 | 2034665 | 126 | 9125 | 20548 | 8250 |
| Cəmi | 110994331 | 89399527 | 76114 | 3912645 | 2082879 | 15523166 |

Əyani olaraq göstərmək olar ki, ölkənin intellektual və iqtisadi potensialının cəmləşdiyi Abşeron iqtisadi rayonunda kitabxanaların informasiya resursları daha böyük həcmdə inkişaf etmişdir.

Diaqram N-5. Azərbaycan Respublikası regionlarının kitabxana informasiya resursları (sıra1-2)







Region 1- Abşeron; region 2-Gəncə-Qazax; region 3-Abşeron; region 4-Lənkəran; region 5- Şəki-Zaqatala; region 6-Quba-Xaçmaz;region 7 –Yuxarı Qarabağ; region 8- Naxçıvan; region 9-Dağlıq Şirvan; region 10- Kəlbəcər-Laçın



Göründüyü kimi kitabxanaların informasiya resursunun 80.5 %-i kitablar, 0.1 %-i elektron nəşrlər, 3.5%-i jurnallar, 1.9 %-i qəzetlər, 14.0%-i digər nəşrlər təşkil edir. Dünya üzrə kitabxana fondlarında kitabların ümumi çəkisi 50% ətrafındadır.

Məlum olduğu kimi, kitabxana-informasiya resurslarından səmərəli istifadənin təşkili bilavasitə onların kadr təminatı səviyyəsindən, o cümlədən ixtisaslı kadrların xüsusi çəkisindən. onların yaşı, peşə səviyyəsi, iş stajı və digər amillərdən asılıdır. (2)

**Cədvəl 9.**

**Azərbaycan Respublikası regionlarının kitabxanalarının kadr təminatı**

| Regionlar | Ali ixtisas | Ali q.ixtisas | Orta ixtisas | Orta q.ixtisas | Ümumi orta | Cəmi |
|---|---|---|---|---|---|---|
| Aran | 133 | 132 | 437 | 306 | 924 | 1932 |
| Gəncə-Qazax | 89 | 129 | 225 | 173 | 509 | 1125 |
| Lənkəran | 53 | 43 | 125 | 158 | 355 | 734 |
| Şəki-Zaqatala | 42 | 51 | 189 | 155 | 203 | 640 |
| Abşeron | 1212 | 813 | 677 | 320 | 295 | 3327 |
| Quba-Xaçmaz | 26 | 23 | 106 | 78 | 336 | 569 |
| Naxçıvan | 33 | 72 | 70 | 68 | 448 | 691 |
| Dağlıq Şirvan | 11 | 22 | 69 | 64 | 170 | 338 |
| Kəlbəcər-Laçın | 23 | 61 | 84 | 66 | 135 | 369 |
| Yuxarı Qarabağ | 33 | 56 | 147 | 94 | 230 | 560 |
| Cəmi | 1579 | 1318 | 1767 | 1261 | 2802 | 8727 |

Ölkə kitabxanaların kadrlara təminat səviyyəsi aşağıdakı diaqramdakı kimidir.

Diaqram N-6. Azərbaycan Respublikasında kitabxana işçilərinin təhsil səviyyəsinə görə bölgüsü




I. Ali və orta ixtisas təhsilli
II. Qeyri-ixtisas ali və orta ixtisas təhsilli
III. Ümumi orta təhsilli

Monitorinqin nəticələri göstərir ki, respublikanın kitabxana müəssisələrində 12729 işçi çalışır. Bunlardan 8727-i mütəxəssis. 4002-i isə texniki işçilərdir. Bu işçilərin şəhər və kənd yerlərinə görə bölgüsü belədir:

- şəhər yerləri üzrə - 45.7%;
- kənd yerləri üzrə - 54.3%

O cümlədən yaşayış yerləri üzrə mütəxəssislərin yerləşməsi aşağıdakı kimidir:

- şəhər yerləri üzrə mütəxəssislər – 52.7%;
- kənd yerləri üzrə mütəxəssislər – 47.3%

Kitabxana işçilərinin təhsil səviyyəsinə görə ümumi mənzərəsi aşağıdakı kimi olmuşdur:

1. Ali ixtisas təhsillilər – 1579
2. Ali qeyri-ixtisas təhsillilər – 1318
3. Orta ixtisas təhsillilər – 1767
4. Orta qeyri-ixtisas təhsillilər – 1261
5. Ümumi orta təhsillilər – 2802

Hesablamalar göstərir ki, ali ixtisas təhsillilər kitabxana mütəxəssislərinin 18%-ni, orta ixtisas təhsillilər isə 20.2%-ni təşkil edir. Bütövlükdə ali və orta ixtisas təhsilli mütəxəssislər kitabxana işçilərinin 38.2%-ni təşkil edir.

Ölkədə gedən təhsil islahatları, mədəniyyətin inkişafına dövlətin qayğısının daim artması, informasiya cəmiyyətinin tələbləri ölkə kitabxanalarında işləyən Ölkədə gedən təhsil islahatları, mədəniyyətin inkişafına dövlətin qayğısının daim artması, informasiya cəmiyyətinin tələbləri ölkə kitabxanalarında işləyən ali qeyri-ixtisas təhsilli işçilərin BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin



nəzdində əlavə təhsil formasında (bunların xüsusi çəlisi 15%) təhsil almalarını müvafiq icra hakimiyyəti orqanları həll edə bilər. Digər tərəfdən kitabxanası olan nazirlik və idarələr yüksək ixtisaslı kadrlara olan tələbatlarını məhz fakültəni bitirən bakalavr və magistrlar vasitəsilə ödəyə bilərlər.

Təhlillər göstərir ki, ali ixtisas təhsilli kitabxana mütəxəssislərinin 87%-i şəhər yaşayış yerlərinin, 13%-i isə kənd yerlərində yerləşən kitabxanalarda çalışırlar. Ümumi orta təhsillilər isə kənd yerlərində xüsusilə çoxluq təşkil edir (77.1%). Bu da kənd yerlərində əhaliyə kitabxana xidmətinin səviyyəsi haqqında düşünməyə əsas verir.

Kitabxanaların 111.0 milyon nüsxədən ibarət olan fondun 80.5%-ni kitablar, 5.4%-ni qəzet və jurnallar, 14.1%-ni isə digər materiallar təşkil edir ki. onların da 72.8%-i şəhər, 27.2%-i isə lənd yerlərində fəaliyyət göstərən kitabxanaların payına düşür.

Kitabxana fondunun 34.6%-i ümumtəhsil məktəblərində, 32.0%-i Mədəniyyət və Turizm Nazirliyinin nəzdində olan kitabxanalarda, 21.4%- elmi və elmi-texniki kitabxanalarda, 12.0%-i isə digər müəssisə və təşkilatların kitabxanalarındadır.

Kitabxanalarda olan fondun 65.5 faizi azərbaycan, 31.1 faizi rus, 2 faizi ingilis dillərində, 1.4 faizi digər dillərdədir. Azərbaycan dilində olan ümumi fondun 71.98 faizi latın, 28.1 faizi isə kiril əlifbasındadır.

2009-cu ilin I yarısında kitabxanalara 4.8 milyon müraciət qeydə alınmış, 53.4 milyon kitab və digər informasiya mənbələrindən istifadə edilmişdir. Müraciətlərin 39.6 faizi 18 yaşınadək uşaqlar tərəfindən olmuşdur.

Kitabxanaların ştatında olan 8727 nəfər mütəxəssisdən cəmi 3346 nəfəri və ya 38.3 faizi kitabxana üzrə ali və orta ixtisas təhsili, 2579 nəfəri, yaxud 39.6 faizi digər sahələr ürzə ali və orta ixtisas təhsilli, 2802 nəfəri və ya 32.1 faizi isə ümumi orta təhsili olan şəxslərdir.

Beləliklə, Azərbaycan Respublikasının regionlarında kitabxana-informasiya resurslarının yerləşməsi vəziyyəti və ondan səmərəli istifadənin perspektivlərinin ümumi mənzərəsi belədir.

**Nəticə.**

«Dünyanın 150-dən çox ölkəsinin inkişafını təhlil edərkən, belə bir fakt meydana çıxmışdır: hansı ölkədə ki, inzibati-ərazi (ərazi-məhəlli) özünüidarə məlumat şəbəkə vahidləri çoxdursa, həmin ölkələrdə də, təbii olaraq inkişaf etmiş demokratik cəmiyyətlər formalaşmış, eyni zamanda insanların həyat səviyyəsi yüksəlmişdir. Belə ki, ABŞ ərazisində (təqribən 9 mln. kv. km.) inzibati-ərazi vahidləri (ştatlar) 51-dir, həyat səviyyəsi-99%; anoloji olaraq Rusiya: ərazisi 17 mln. kv. km, ərazi bölgüsü yalnız –79, həyat səviyyəsi-80 %; Yaponiyada, müvafiq olaraq 0,4-61-99; Almaniya: 0,35-24-98; İngiltərə: 0,24-92-98; Danimarka: 0,04-16-99; Fransa: 0,54-96-98; Lüksemburq: 0,003-4-99; Belçika: 0,03-9-99; İsveçrə: 0,4-23-99; Lixtenşteyn: 0,002-11-99% təşkil edir. İnformasiya cəmiyyəti mövcud olan ölkələrdə hər bir insanın azadlığı onunla məhdudlaşır ki, o, başqasının azadlığını məhdudlaşdıra bilməz (11, s.372). Tədqiqat göstərir ki,

yuxarıda göstərilən amillər, kitabxana-informasiya resurslarının yerləşməsinə də ciddi təsir edir. Belə ki, dünya əhalisinin təxminən 18%-nin yerləşdiyi Avropa və Şimali Amerikada dünya kitabxana infrastrukturunun 80%-ə qədəri yerləşir. Dünya əhalisinin 60%-nin yerləşdiyi Asiyada isə əhalinin kitabxana resursları ilə təminatı çox aşağı səviyyədədir. Eyniylə bu prosesi Azərbaycan miqyasında Abşeron iqtisadi regionunda da görmək olar.

Tədqiqat nəticəsində müəyyən olundu ki, regionların tarazlı inkişafının meylləri kitabxana-informasiya infrastrukturunun yerləşməsində müşahidə edilmir. Əsas vəzifələrdən biri regional baxımdan kitabxana-informasiya infrastrukturunun yerləşməsinə, resurslardan səmərəli istifadəyə, kitabxanaçı kadrlarla təminat sistemin yenidən baxmaqdır.


**Ədəbiyyat**

*a) Azərbaycan dilində*

1."Azərbaycan kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılması haqqında"/Azərbaycan Respublikası Prezidentinin Sərəncamı //Kitabxanaşünaslıq və Biblioqrafiya ,s.6

2.Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında. I və II cild Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2007, 820s.

3.Azərbaycanın regionları.B.,2009.S 35-60.

4.Kitabxanaların fəaliyyəti haqqında statistik müayinənin nəticələri barədə statistik bülleten.B.,2009.-86s.

5.Əfəndiyev V.Ə., Nağıyev S.Q. Əhali coğrafiyası.Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, 338 s.

*b) Rus dilində*

6.Библиотечное дело: Терминол. слов.- М.: Книга, 1986.-

7.Всемирный Саммит по информационному обществу.-СПб.,2004.с.125

8.Карташов Н.С Размешение библиотек: регионалный аспекть.-Библиотека.-2004.-№3.-с.6-9.

9.Карташов Н.С Размешение библиотек и библиотечных ресурсов.-Библиотека.-2004.-№4.-с.61.

10. Юзвишин И.И. Основы информациологии.-М.,2000.-517 с.

11. (http://www.google.ru).

*b) İngilis dilində*

12. Global Library Statistics 1990-2000/İnternational Federation of Library Association and İnstitutions; World summit on the information society, Geneva.-2003.-Tunis2005.-2003.-18 p.

13. UNESCO 1999 Statestical Yearbook. Culture&Communication.-ЮНЕСКО.-1999. Годовой статистический сборник.-Культура и связ.-http://portal.unesco.org/uis/ev.php?URL_ID-3754&URL_DO-DO_TOPIC&URL_SECTION+201


*Məqalə BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının 15 aprel 2015-ci ili tarixli 8 saylı iclasında müzakirə edilmiş və çapa məsləhət görülmüşdür.*

*Rəyçilər: prof.X.İ.İsmayılov, fəlsəfə doktoru X.Ağayeva*